**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

**UOT 1(09)**

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ QAZANILMIŞ QƏLƏBƏDƏ AZƏRBAYCANIN "YUMŞAQ GÜC" RESURSLARININ ROLU

**Məhəmməd ƏKBƏROV***

Məqalə redaksiyaya daxil olmuşdur: 28 dekabr 2024; çapa qəbul edilmişdir: 5 yanvar 2025; online-da çap edilmişdir: 19 mart 2025.

Received: 28th of December, 2024; accepted: 5th of January, 2024; published online: 19th of March, 2025.

**Açar sözlər:** *İkinci Qarabağ müharibəsi, diaspora, informasiya amili, xarici siyasət, vətəndaş cəmiyyəti təşkilatı*

## Giriş

Bəşər tarixi boyunca dövlətlərin hərbi təhlükəsizliyi (o cümlədən müharibələrin aparılması) həm hərbi, həm də qeyri-hərbi vasitələrin hərtərəfli istifadəsi ilə təmin edilmişdir. E. ə. III-II əsrlərdə Roma və Karfagen arasında təxminən 120 il davam edən qarşıdurmada tərəflər dəniz blokadaları, geniş yayılmış təxribat hərəkətləri, üsyanlar və çevrilişlər törətmək, müttəfiqlər tapmaq, şirnikləndirmə, gizli diplomatiya, casusluq və s. yollarla bir-birini məğlub və müdafiə etməyə çalışmışlar. Düşmən üzərində bütün mümkün vasitələrdən istifadə etməklə döyüşsüz qələbə qazanmaq haqqında Sun Tszının fikirləri elmə məlumdur. O, "Hərb məharəti" əsərində döyüşsüz qalibiyyəti hərb məharətinin zirvəsi adlandırmışdır [15].

Buna oxşar fikir tanınmış hərbi nəzəriyyəçi Karl fon Klauzevitsə məxsusdur. O iddia edirdi ki, dövlətin hərbi-siyasi vəziyyətini qiymətləndirərkən hər şeydən əvvəl daxili və xarici siyasi münasibətləri nəzərə almaq son dərəcə vacibdir. O hesab edirdi ki, düşmənin müttəfiqlərini parçalamaq və ya oyundan kənar vəziyyətə salmaq, dostlar toplamaq, sərfəli siyasi kombinasiyalar qurmaq, xalq dəstəyini təmin etmək və s. gedişlər müharibədə düşmənin silahlı qüvvələrinin birbaşa döyüşdə məhv edilməsindən daha çox üstünlüklər yarada bilər [18].

Dünya hərb tarixinin təcrübəsi göstərdiyi kimi, milli təhlükəsizlik sisteminin hərbi komponentinin mütləqləşdirilməsi dövlətin təhlükəsizliyinin mükəmməl şəkildə təmin edilməsinə təminat vermir. Üstəlik, hərbi gücün artırılması dövlətlər arasında qüvvələr balansını pozmaqla yanaşı, həm də dövlətin iqtisadiyyatını ciddi şəkildə sarsıda, xalqın maddi və mənəvi həyat səviyyəsinə mənfi təsir göstərə bilər.

Ümumiyyətlə, müharibə kompleks tədbirlər hesabına həyata keçirilən sosial prosesdir. Həmin prosesdə "ağır güc"lə yanaşı, "yumşaq güc" vasitələri də fəal çıxış edir. "Yumşaq güc" vasitələrinə ölkənin diplomatiyası, milli konsolodasiyası, təbii ehtiyatları, uzaqgörən siyasəti, diasporun fəaliyyəti, informasiya-psixoloji müharibə və s.-ri aid edilir. Elm və texnologiyanın inkişaf etdiyi və postsənaye dövrü kimi xarakterizə edilən

* *fəlsəfə üzrə fəlsəfə doktoru, Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu*
*e-mail:* court.akberov@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.1.010**

informasiya sivilizasiyasında – XXI əsrdə “yumşaq güc” vasitələri arasında dominant yeri yüksək texnologiyalar ələ keçirib. Məhz onların məqsədyönlü tətbiqi hərb məharətini, əməliyyat şəraitini və idarəetməni kökündən dəyişib. Yeni texnologiyalar nəinki gələcək müharibələrin xarakterini dəyişir, hətta insanları əsrlər boyu kök salmış döyüş ənənələrindən imtina etməyə vadar edir. Bütün bunlar müharibələrin sürətlə transformasiyasını şərtləndirir və qeyri-ənənəvi metodların rolunun artmasına şahidlik edir. Müasir müharibələrə mübarizənin ideoloji, psixoloji, iqtisadi və informasiya formalarının təsiri durmadan artır, dağıdıcı və amansız xarakteri ilə seçilir. Məqalədə struktur-funksional və siyasi təhlil metodundan geniş istifadə edilib.

44 günlük müharibədə əldə edilmiş qələbədə qeyri-hərbi güc vasitələrinin rolunu inkar etmək olmaz. Bu müharibə müasir dövrdə hərbi gücünü qeyri-hərbi metodlarla üzvü vəhdətini əks etdirən ən yaxşı misal hesab edilir. Düzdür əksər müharibələrdə belə sintezlərə rast gəlinsə də, nisbət məsələsində hərbi komponent öz üstün rolunu saxlamağa müvəffəq olub. Lakin 44 günlük müharibədə ilk dəfə olaraq hərbi komponentin çoxəsrlik dominantlığı aradan qalxmış oldu. Məhz İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun qələbəsində qeyri-hərbi güc elementlərinin: süni intellekt (kosmik kəşfiyyat və insansız döyüş silahları), diaspora, vətəndaş cəmiyyəti strukturu, informasiya müharibəsi, proaktiv xarici siyasət və s.-nin məqsədyönlü istifadəsi diqqəti cəlb etmiş oldu.

Şübhəsiz, 44 günlük Vətən müharibəsində qazanılmış parlaq qələbədə ölkənin son otuz ildə həyata keçirdiyi hərbi quruculuq siyasətinin rolu danılmazdır. Həmin illər ərzində Azərbaycanda hərbi quruculuq dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirmiş, Silahlı Qüvvələrin döyüş hazırlığının və mənəvi ruhunun yüksəlməsində, silah arsenalının müasirləşməsində, hərbi qulluqçuların sosial-hüquqi təminatlarının həll edilməsinə xüsusi diqqət yetirilmişdir. Silah arsenalının müasirləşməsindən bəhs edərkən ölkənin milli və hərbi təhlükəsizliyinin təmin edilməsində süni intellektin imkanlarından geniş istifadə nəzərdə tutulur. Bu istiqamətdə ilk işlərə 2008-ci ildən etibarən start verildi. Məhz həmin illərdə dünyanın neft bazarında qiymətlərin qalxması Azərbaycana öz müdafiə büdcəsini artırmağa imkan verdi və nəticədə yeni silahların alınması həyata keçirildi. Elə həmin ildə İsraildən kiçik Orbiter 2M və taktiki Aerostar pilotsuz uçuş aparatları əldə edildi. 2009-2010-cu ildə bu aparatların Azərbaycanda yığılmasına dair razılıq əldə edildi [14, s.37]. Məhz bu tarixdən Azərbaycan ordusunun arsenalında süni intellektin məhsulu olan PUA-lar peyda olmağa başladı. Bunun ardınca İsraildən taktiki IAI Searcher Mk2, uzun uçuş müddətli İAİ Heron və biristifadəli zərbə IAI Harop PUA-rı alındı, 2020-ci ilin yayında isə Türkiyə Azərbaycan ordusuna 6 ədəd “Bayraktar TB2” pilotsuz uçan aparat ixrac etdi.

Bunlarla yanaşı, Azərbaycan kosmik kəşfiyyatını möhkəmləndirmək məqsədilə 2013, 2014 və 2018-ci illərdə öz peyklərini: “Azerspace-1”, “Azerspace-2”və “Azersky”ı kosmosa buraxdı. Həmin peyklər milli təhlükəsizliyin qorunması və ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayıb. Xüsusən də Azersky peyki sayəsində vaxtilə Ermənistanın işğalı altında qalmış Azərbaycan ərazilərində törədilmiş yanğınlar mütəmadi monitorinq edilmiş, dəymiş ziyanın qiymətləndirilməsi aparılmışdı. “Azersky” 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun zəfər qazanmasında da əhəmiyyətli rol oynayıb. Bu peyk vasitəsilə düşmənin hərəkətlərini izləmək və təxribatlarının qarşısını almaq mümkün olub. “Azərsky” peykinin imkanlarından müharibədən sonrakı dövrdə azad olunmuş ərazilərimizin iqtisadi potensialının müəyyənləşdirilməsində də geniş istifadə olunub. Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “həm müharibə dövründə, həm müharibədən sonrakı dövrdə peyklərdən istifadə bizə çox böyük üstünlük təmin etdi” [2].

Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı qələbənin sirrini Ermənistanın eks-prezidenti Armen Sarkisyan Moskvada diaspor nümayəndələri ilə görüşlərinin

birində belə dəyərləndirmişdi: "son illər Azərbaycan güclənmək üçün böyük məbləğlər sərf edib, Ermənistan isə keçmişin şöhrəti ilə qürrələnib. 44 günlük müharibədə Azərbaycanın dronu olub, Ermənistanda isə belə silah olmayıb. Gələcəyin müharibəsi süni intellektin iştirakı ilə həyata keçiriləcək. Məhz buna görə elmlə, yeni texnologiya və təhsillə məşğul olmalıyıq ki, yenidən məğlub olmayaq" [17].

Silahlı Qüvvələrimizin döyüş meydanında qazandığı uğurlarda süni intellektin rolu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində və xarici ölkə medialarına verdiyi müsahibələrində, xüsusilə qeyd etmişdir. Hərbi əməliyyatların davam etdiyi bir dövrdə – oktyabrın 14-də Ali Baş Komandan "France 24" televiziya kanalına müsahibəsində bildirmişdir ki, "təkcə Türkiyədən əldə etdiyimiz Bayrakdar TB2 vasitəsilə biz Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etmişik" [5].

Bu gün dünyanın aparıcı ölkələrinin qərargahlarında Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı və müasir hərb elminə bir sıra yeniliklərə daxil olmuş həmin qələbənin sirləri öyrənilir, hərbi-sənaye kompleksləri öz fəaliyyətlərini və planlarını "dron müharibələrinə" uyğunlaşdırmağa çalışır. Bu müharibədən çıxarılan dərslər belə nəticəyə gəlməyə əsas verir ki, labüd toqquşma şəraitində əsas hərbi təhdidlərin havadan gələcəyi qaçılmaz olduğu üçün ölkələr hava məkanının təhlükəsizliyini prioritet istiqamət kimi dəyərləndirir və müvafiq tədbirlər görürlər.

## 1. Tarixi qələbədə diaspor təşkilatlarının rolu

44 günlük tarixi qələbənin əldə olunmasında diaspor təşkilatları mühüm rol oynayıb. Kommunikasiya vasitələrinin inkişafı və ölkələr arasında qarşılıqlı asılılığın artması, ümumən qloballaşma diasporaların bir tərəfdən öz tarixi vətənləri ilə əlaqə saxlamasını asanlaşdırıb, digər tərəfdən onların yaşadıqları ölkədə həyatın bütün sahələrinə inteqrasiyasını sürətləndirib. Bu, mənşə ölkələrinə diasporlardan "yumşaq güc" aləti kimi istifadə etmək imkanını genişləndirib. Adətən siyasi kompaniyalarda diaspor təşkilatları rəsmi kanallardan və ya mediadan daha çox fayda gətirir. Bundan əlavə, diaspor üzvlərinin yerli əhali ilə müəyyən sosial əlaqələri və təmasları var ki, bu da onlara mədəni təsir göstərməyə və mənşə ölkə haqqında müsbət təsəvvürlər formalaşmasına imkan verir.

Azərbaycanda diaspor siyasətinin formalaşdırılması və institusional xarakter almasında Ulu öndər Heydər Əliyevin rolu danılmazdır. Məhz onun Azərbaycanda yenidən hakimiyyətə qayıdışı bu sahədə təxirəsalınmaz işlərin görülməsinə təkan verdi. Azərbaycan diasporunun formalaşdırılması bir sıra məqsədlərdən irəli gəlib: birincisi, ərazisinin 20%-i işğal altında olan ölkə bütün resurslarını, o cümlədən ölkə hüdudlarından kənarda yaşayan soydaşlarını bu mübarizəyə səfərbər etməlidir.

İkincisi; diaspor yaşadığı ölkədə Ana Vətəni haqqında həqiqətlərin yayılması, orda yaşayan əhalinin hadisələrin obyektiv məzmunu ilə məlumatlandırılması, həmin ölkə ilə ana Vətəni arasında əlaqələrin qurulması və inkişafı prosesində əsas rol oynayır. Diasporun sayından və kompakt yaşamasından asılı olaraq, onlar məskunlaşdığı ölkənin siyasi həyatına təsir etmək imkanlarına malikdir. Əgər onların yaşadıqları ölkə ilə mənşə ölkə arasında isti münasibətlər varsa, o zaman diasporun təşkilatlanması və yaşadığı ölkənin hərbi-siyasi qərar qəbul etmə orqanlarına təsir göstərməsi daha asan hesab edilir. Misal qismində erməni diasporunun Fransanın siyasi həyatında oynadığı rolu qeyd etmək olar. İranda yaşayan soydaşlarımızın İranın Azərbaycan siyasətinə təsirlərini də əlavə etmək olar. Düzdür, Cənubi Azərbaycan soydaşlarımızın doğma vətənidir. Bununla belə, 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinə əsasən, Azərbaycanın ikiyə bölünməsi nəticəsində ölkəmizin cənub hissəsi İranın nəzarətinə keçib.

Üçüncüsü; diaspor informasiya müharibəsinin aparılmasında mühüm alətdir. Onların təşkil etdiyi mədəni-kütləvi tədbirlər ölkənin mədəniyyəti, inkişafı, xarici siyasəti

haqqında məlumatların yayılmasında və ötürülməsində əsas rol oynayır.

2002-ci ildə diaspora quruculuğu sahəsində həyata keçirilmiş tədbirlər xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşməsinə, azərbaycançılıq identikliyinin möhkəmlənməsinə ciddi zəmin yaratdı. Məhz bunun nəticəsində 2016-ci ilin aprelində baş vermiş dörd günlük savaş, 2020-ci illərdə Tovuz hadisəsi və 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan diasporu mütəşəkkil və məhsuldar fəaliyyəti ilə qarşıya qoyulmuş tapşırıqların öhdəsindən gələ bildi.

Belə bir fikirlə razılaşmaq olur ki, 2020-ci il müasir Azərbaycan diasporunun dönüş ili kimi xarakterizə olunur. Məhz həmin ilin əvvəllində qəflətən dünyanı bürüyən koronavirus pandemiyası ilə əlaqədar çətin vəziyyətdə qalmış soydaşlarımıza dəstək göstərmək üçün diasporumuz çox böyük birlik, həmrəylik və humanizm nümayiş etdirdi. Pandemiya ilə başlayan bu birlik sonradan Ermənistanın Tovuz təxribatı zamanı daha da möhkəmləndi və torpaqlarımızın azadlığı uğrunda aparılan Vətən müharibəsində özünün ən yüksək zirvəsinə çatdı. 44 günlük hərbi əməliyyatlar dövründə xaricdəki soydaşlarımız siyasi baxışından, düşüncəsindən, yaşadığı ölkədən, çalışdığı yerdən asılı olmayaraq, milli birlik nümayiş etdirərək bütün imkanları ilə dövlətimizə və ordumuza dəstək göstərdi. Onlar orduya, yaralı əsgərlərə, şəhid ailələrinə, cəbhəboyu ərazilərdə yaşayan, müharibədən zərər çəkən dinc sakinlərə, şəhid ailələrinə maddi, humanitar yardımlar göndərməklə yanaşı, haqq səsimizin dünyaya çatdırılmasında da böyük mütəşəkkillik və fədakarlıq ortaya qoydu.

44 günlük Vətən müharibəsi dövründə Diaspora Komitəsinin koordinasiyası ilə 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatı, beynəlxalq təşkilatlar və Azərbaycandakı icmalar müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, BMT, Avropa Parlamenti, Avropa Şurası və digər beynəlxalq qurumlara 23 dildə 500-dən artıq müraciət göndərib. Avropa Parlamentinin üzvlərinə 775 bəyanat çatdırılıb, müxtəlif ölkələrin 641 nəfər parlament üzvünə isə bəyanat və müraciətlər birbaşa təqdim olunub. Təkcə "Azərbaycan Diaspor Qadınları Şəbəkəsi"nin erməni əsgər analarına müraciəti elektron poçt vasitəsilə 58 dövlət başçısına, 44 beynəlxalq təşkilata və 5 minə yaxın vəzifəli şəxsə göndərilib [10].

Bundan əlavə, məhz diasporumuzun iştirakı ilə 36 xarici ölkədə 198 tədbir keçirilib, onların 111-i aksiya, yürüş, avtoyürüş olub. Bu tədbirlərdə Türkiyə, İsrail, Pakistan, Ukrayna və Azərbaycanda dost digər ölkələrin diaspor nümayəndələri də iştirak edib. Həmin günlərdə Komitənin rəhbər şəxslərinin, eləcə də Azərbaycan diaspor təşkilatları üzvlərinin xarici media orqanlarına çıxışları intensivləşib, diaspor nümayəndələri xarici TV-lərdə 98 dəfə canlı yayıma qatılıb. Dünyanın 60 ölkəsindən minlərlə həmvətənimizin qatıldığı 300-dən çox videokonfrans təşkil olunub, diaspor təşkilatları və üzvləri 60 ölkədə 32 dildə 535 məqalə dərc etdirib [10].

## 2. Vətəndaş Cəmiyyəti Təşkilatlarının (VTC) Vətən müharibəsində rolu

Vətən müharibəsində əldə edilmiş tarixi qələbədə ölkədə fəaliyyət göstərən QHT-lər öz töhfələrini əsirgəməmişlər. QHT-lər siyasi sisteminin elementi olaraq, ölkədə baş verən proseslərdə fəal rol oynayırlar. Müxtəlif fəaliyyət sahəsi üzrə ixtisaslaşmış QHT-lər həmin sahələrdə dövlət siyasətinin formalaşmasında və inkişafında səmərəli fəaliyyət göstərə bilər. Belə ki, onlar rasional təkliflər verə, hesabatlar hazırlaya, ixtisaslaşdıqları sahənin kritik problemləri və onların həlli yollarına dair dəyirmi masa təşkil edə və ya müvafiq dövlət orqanları ilə görüşlər keçirə bilərlər. Onların bu fəaliyyəti dövlət siyasətinə dəstək aktı kimi qiymətləndirilə bilər. Həmin təşkilatlar müxtəlif məsələləri ictimailəşdirməklə cəmiyyətin və hakimiyyətin diqqətini həmin məsələlərin həllinə yönəldə bilərlər.

Ümumilikdə QHT-ləri fəaliyyətlərinə görə konstruktiv və qeyri-konstruktiv olur. Konsrtuktiv QHT-lərə səmərələşdirici fəaliyyəti və ölkənin milli maraqlarına sadiqliyi

ilə seçilir.

Qeyri-konstruktiv QHT-lər daha çox xaricdən gələn təlimat və maliyyə (qrant) əsasında fəaliyyət göstərən, ölkədə istimai-siyasi vəziyyəti gərginləşdirən, "beşinci kolon" kimi çıxış edən və hakimiyyət çevirilişində fəal rol oynayan və ya belə məqsədə xidmət edən mülki cəmiyyət təşkilatları hesab edilir. Misal qismində Gürcüstan və Ukraynada baş vermiş "rəngli inqilablarda" ABŞ-ın Beynəlxalq inkişaf Agentliyi, Soros Fondu, Marşal fondu və s. institutların təlimatı və maliyyəsi ilə hərəkət etmiş antirusiya meyilli QHT-ri göstərmək olar.

Vətən müharibəsi dövründə onların əksəriyyəti milli birliyin və tarixi qələbənin təmin edilməsində müstəsna rol oynadılar. Belə ki, sentyabrın 27-də 1128 QHT-nin xalqa müraciətində Ali Baş Komandana və ordumuza tam dəstək ifadə etmiş, müharibənin ikinci günündə 25 hərbyönümlü QHT Ali Baş Komandana müraciət etmişdir [1].

44 günlük Vətən müharibəsi dövründə Ordumuza dəstək məqsədilə QHT-lər müxtəlif səpkili aksiya və kampaniyalar təşkil edib. "Əsgərə pay", "Əsgər ailələrinə dəstək olaq", "100 əsgərə 100 sovqat", "100 əsgərə 100 məktub", "Orduya dəstək" adlı kompaniyalar çərçivəsində əsgərlər üçün ərzaq, tibbi ləvazimat, isti geyimlər və digər zəruri ləvazimatlar alınıb, tanınmış şəxslərin, sadə vətəndaşların əsgərlərə ürək sözləri, arzuları cəbhədə olan əsgərlərimizə məktub formasında çatdırılıb [1].

44 gün ərzində QHT-lər beynəlxalq təşkilatlara, müxtəlif ölkələrin prezidentlərinə və xarici işlər nazirlərinə Ermənistanın işğalçılıq siyasəti, beynəlxalq cinayətləri və digər hüquq pozuntusu hərəkətləri ilə əlaqədar 22 kollektiv və 15 fərdi olmaqla 36 müraciət qəbul edib. Bu bəyanat və müraciətlər 39 beynəlxalq quruma, həmçinin 5 ölkənin prezident, parlament və xarici işlər nazirlərinə ünvanlanıb [1].

### 3. Vətən müharibəsində Azərbaycanın proaktiv xarici siyasəti

Dövlətin hərbi təhlükəsizliyi təkcə silahlı qüvvələrin yüksək döyüş hazırlığının saxlanılması ilə deyil, həm də fəal xarici siyasət yeritməsi ilə təmin edilir. Hər bir dövlət müharibələrin və silahlı münaqişələrin qarşısının alınmasında siyasi, diplomatik, iqtisadi və digər qeyri-hərbi vasitələrə üstünlük verir. Beləliklə, diplomatiya milli və beynəlxalq təhlükəsizliyə təhdidlərə qarşı ilk müdafiə xəttini təşkil edir.

Xarici siyasət dövlətin beynəlxalq münasibətlərdə ümumi kursudur. Dövlətin coğrafi mövqeyi, təbii ehtiyatları, əhalisinin tərkibi, ətraf ölkələrlə münasibəti və onun beynəlxalq münasibətlər sistemində yeri – bu kursu formalaşdıran, ölkənin milli maraqlarını müəyyənləşdirən struktur elementlər hesab olunur. Xarici siyasət maksimum mənfəətli, minimum riskli olmalıdır. Dövlətin həyati mühüm maraqları heç bir sövdələşmə obyekti ola bilməz. 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycan diplomatiyası Ermənistanın işğalçılıq siyasətinin beynəlxalq miqyasda ifşa edilməsində, ölkənin suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsində barışmaz və fəal mövqeyi ilə diqqəti cəlb etdi. Belə ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 27 sentyabr 2020-ci il tarixli bəyanatında Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə BMT Nizamnaməsinin 51-ci maddəsi (özünü müdafiə hüququ) çərçivəsində və beynəlxalq humanitar hüququn Haaqa və Cenevrə Konvensiyalarının müddəalarına tam riayət etməklə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum və cavab tədbirlərinin həyata keçirildiyi və yaranmış vəziyyətə görə tam məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyü bəyan edildi.

44 günlük hərbi əməliyyat zamanı Azərbaycan diplomatiyası bütün beynəlxalq və regional təşkilatlarla: BMT Təhlükəsizlik Şurası, BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Qoşulmama Hərəkatı, Türk Şurası, NATO, GUAM, Avropa Parlamenti sıx şəkildə əməkdaşlıq etmiş, Ermənistanın işğalçı qüvvələrinin Azərbaycanın

işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qərar və qətnamələrini həyata keçirilməsinin vacibliyini bəyan etmişdir.

Vətən müharibəsi müddətində Azərbaycan Respublikasının Prezidenti 8 dəfə xalqa müraciətlə çıxış edərək, cəbhə bölgəsindəki vəziyyətlə bağlı ən son məlumatları əhalinin diqqətinə çatdırmış, eyni zamanda həm beynəlxalq ictimaiyyəti dəqiq və dürüst şəkildə məlumatlandırmış, işğaldan azad edilmiş ərazilərdəki vəziyyət, Ermənistan tərəfindən illər ərzində aparılmış qanunsuz fəaliyyət və onun nəticələri, genişmiqyaslı dağıntılar, habelə Ermənistanın müharibə cinayətləri barədə konkret məlumatları təqdim etmişdir.

Hərbi əməliyyatlar zamanı Azərbaycan və Ermənistan xarici işlər nazirləri Moskva və Vaşinqtonda bir araya gələrək üç dəfə humanitar atəşkəsin elan edilməsi haqqında sənəd imzalasalar da, Ermənistan həmin sənədləri kobud şəkildə pozaraq hərbi əməliyyatları həm döyüş səhnəsində, həm də döyüşdən kənarda – Azərbaycanın dinc şəhərlərini bombardıman etməklə davam etdirmişdir.

Ümumilikdə hər üç görüşün nəticələrini Azərbaycan diplomatiyasının uğuru kimi təqdim etmək mümkündür. Belə ki, 9 oktyabr 2020-ci il tarixində Moskvada keçirilmiş ilk görüşün nəticəsində Rusiya Federasiyası, Azərbaycan Respublikası və Ermənistan Respublikasının Xarici İşlər nazirlərinin bəyanatı qəbul edildi [3]. Həmin bəyanatda qeyd edilmişdi:

1. 2020-ci ilin 10 oktyabr tarixi, saat 12.00-dan etibarən humanitar məqsədlərlə Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi və onun kriteriyalarına uyğun olaraq, hərbi əsirlər və digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi üçün atəşkəs elan olunur;

2. Atəşkəs rejiminin konkret parametrləri əlavə olaraq razılaşdırılacaq;

3. Azərbaycan Respublikası və Ermənistan Respublikası ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə tənzimlənmənin əsas prinsipləri əsasında münaqişənin tezliklə sülh yolu ilə həlli məqsədilə substantiv danışıqlara başlayırlar;

4. Tərəflər danışıqlar formatının dəyişilməzliyini təsdiq edirlər.

Bu bəyanatı Azərbaycan diplomatiyasının uğuru kimi təqdim etməyə iki əsas mövcuddur. Birincisi; danışıqlar formatının dəyişməzliyinin təsdiq edilməsi. Məlumdur ki, N.Paşinyan Ermənistanda hakimiyyətə gələndən sonra Miatsum ideyasını yenidən rəhbər şüara çevirdi və “DQR”ın danışıqlar prosesinə cəlb edilməsini əsas şərtlərdən biri kimi irəli sürdü. Hətta onun bu şərti Tovuz hadisəsindən sonra bəyan etdiyi 7 prinsipində öz əksini tapdı. Bu bəyanata daxil edilmiş 4-cü bənd N.Paşinyan hakimiyyətinin danışıqların formatını dəyişdirmək və genişləndirmək istəyinin üstündən xətt çəkmiş oldu. Şübhəsiz N.Paşinyan DQR-ı danışıqların bərabərhüquqlu tərəfinə çevrilməklə üfüqi qarşıdurmanın şaquli münaqişə ilə əvəzləmək məqsədi güdüb. Burada əsas məqam məlum qarşıdurmanın dövlətlərarası (beynəlxalq) statusunu daxili münaqişə ilə əvəz etmək, danışıqların tərəfi qismində separatçı və kriminal rejimin mövqeyini möhkəmləndirmək olub.

10 oktyabr Bəyanatının 3-cü maddəsinə görə tərəflər danışıqların yalnız ATƏT-in Minsk qrupunun baza prinsipləri əsasında tənzimləməsi öhdəliyi götürmüşlər. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun sözlərinə görə, Ermənistan çox qısa müddətdə baza prinsipləri əsasında substansiv danışıqların aparılması öhdəliyini üzərinə götürüb: “Ermənistan bundan əvvəl həmin prinsipləri rədd etmişdi. Son günlər döyüş meydanında qazandığımız uğurlar imkan verdi ki, Ermənistan bu şərti qəbul etsin. Həmçinin, Ermənistan danışıqlar zamanı özlərinin təhlükəsizliyini təmin etmək üçün şərtlər qoyurdu. Lakin biz bunu qəbul etmədik və bildirdik ki, bu məsələlər Ermənistan qoşunları Azərbaycan ərazilərindən çıxandan sonra həll edilə bilər” [6].

Həmin razılaşma insanpərvərlik mülahizələrinə söykənən Cenevrə Konvensiyalarına uyğun olaraq həlak olanların cəsədlərinin, girovların, əsirlərin dəyişdirilməsini nə-

zərdə tuturdu. Lakin razılaşma əldə olunandan sonra Ermənistan atəşkəsi pozaraq, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəni raket atəşinə tutmuş, nəticədə 10 günahsız mülki şəxs həyatını itirmiş və 35 insan yaralanmışdır.

Tərəflər arasında növbəti humanitar atəşkəs 17 oktyabr tarixində elan edildi. Lakin dəqiqələr sonra həmin atəşkəsi pozan Ermənistan Gəncə şəhərinə növbəti namərd hücumunu reallaşdırdı. İkinci atəşkəs rejiminin elan edilməsinə kimi Azərbaycan Ordusu hərbi əməliyyatlar zonasında müəyyən üstünlük qazanmış, Cəbrayıl şəhərini, Suqovuşan və Hadrutu düşməndən təmizləmiş, Füzuli şəhəri isə işğaldan azad edilmə ərəfəsində idi. Döyüş meydanında məğlubiyyəti həzm edə bilməyən Ermənistan müharibəni urbanizasiyalaşdırmaq yolu ilə Azərbaycanın cəbhəyə yaxın dinc şəhərlərində panika yaratmaq və siyasi hakimiyyətin diqqətini aktiv əməliyyatlardan yayındırmağa səy göstərmişdir. 44 günlük müharibə zamanı N.Paşinyanın hərbi məsələlər üzrə baş müşaviri, sonra müdafiə naziri olmuş Vaqarşak Arutyunyan "Rossiya 1" telekanalının "Vesti" verilişinə verdiyi müsahibəsində bəyan etmişdir ki, "Ermənistan məqsədyönlü olaraq, Azərbaycanın dinc şəhərlərini raket atəşinə tutur, dinc əhali arasında vahimə yaratmağa çalışır" [13]. Erməni rəsmisinin bu açıqlamasının insanlığa qarşı cinayət olduğunu dərk edən aparıcı verilişi yarımçıq kəsməyə məcbur olmuşdu.

Hər iki atəşkəsin fiaskosunun ardınca 24 oktyabrda Vaşinqtonda ABŞ Dövlət katibi M.Pompeonun başçılığı altında Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşü keçirildi. Bu görüşədək Azərbaycan Ordusu cəbhədə strateji üstünlüyü tam olaraq ələ keçirmiş və İran-Azərbaycan sərhədlərinin işğal altında qalmış 132-km-lik hissəsini düşməndən azad etmək üzrə idi. Şübhəsiz hərbi sahədə üstünlük danışıqlar masasında Azərbaycanın mövqeyini gücləndirmişdi. 44 günlük müharibə zamanı ABŞ münaqişə zonasında zorakılığın eskalasiyasının yolverilməz olduğunu və tərəflərin danışıqlar masasına qayıtmasını vacib hesab etmişdi. Bu müharibə ABŞ-da prezident seçkiləri dövrünə təsadüf etdiyindən D.Tramp administrasiyası erməni lobbisinin dəstəyini qazanmaq məqsədilə münaqişə amilindən yararlanmağa cəhd etdi. O, danışıqlarda tərəqqinin hiss edildiyini və Ermənistanla yaxşı münasibətlərə malik olduqlarını bəyan etmişdir.

Vaşinqton danışıqları (26.10.2020) ərəfəsi münaqişə zonasında hərbi vəziyyəti şərh edərkən ABŞ-ın dövlət katibi M.Pompeo aşağıdakı sözləri söyləmişdi: "Deskalasiya olduqca vacibdir, bunun üçün heç bir ölkə müdaxilə etməməli, münaqişə alovuna yanacaq tökməməlidir. Silah yoxdur, dəstək də yoxdur. Məhz bu nöqtədə hər kəs üçün məqbul olan diplomatik həll yolu əldə edilə bilər" [16].

Heç şübhəsiz, M.Pompeo öz çıxışında münaqişənin nizamlanmasında birtərəfli səylərin, xüsusən də Türkiyənin iştirakının yolverilməz olduğuna işarə edib. Eyni mövqeyi ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri R.Obrayn da nümayiş etdirib. O, Kaliforniyadakı erməni icmasının üzvləri ilə görüşü zamanı "Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün bölgəyə Skandinaviya ölkələrinin sülhməramlıları cəlb olunmalıdır" fikrini dilə gətirməklə, münaqişədə Türkiyənin vasitəçiliyini və ya sülhməramlı qismində iştirakını həm ABŞ, həm də Ermənistan üçün qəbuledilməz olduğunu bəyan etmişdi [7]. Əslində bu fikrin Rusiyanın da ünvanına səsləndirildiyini demək mümkündür.

10 noyabr Üçtərəfli Bəyanatı Azərbaycan diplomatiyasının və Silahlı Qüvvələrinin möhtəşəm uğuru hesab edilir. 9 maddədən ibarət olan həmin sənədin 2,5,6,7,8 və 9-cu maddələri "yumşaq güc" sahələrini əhatə edir. Həmin maddələr postmüharibə dövrü üçün Azərbaycanın xarici siyasətində "yumşaq güc" vasitələrinin perspektivlərinin artacağına dəlalət edirdi. Onların arasında Ağdam, Laçın və Kəlbəcərin savaşsız qaytarılması və regional nəqliyyat dəhlizlərinin açılması ideyası Azərbaycan diplomatiyası üçün ölkənin ərazi bütövlüyünün təmin edilməsindən sonra ən böyük nailiyyət hesab edilir.

Vətən müharibəsi ərzində Türkiyə, Rusiya, İran, Fransa, Almaniya, Qətər, Belarus liderləri, BMT Baş katibi, Avropa İttifaqı Şurasının prezidenti tərəfindən Azərbaycan

Respublikasının Prezidentinə telefon zəngləri edilmiş, xarici dövlət və təşkilatların rəhbərləri silahlı qarşıdurma ilə bağlı narahatlıqlarını bildirərək, bölgədəki son vəziyyətlə maraqlanmışlar. Telefon söhbətləri zamanı dövlət başçısı sentyabrın 27-də Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatla bağlı qarşı tərəfə məlumat vermiş, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyətin məhz Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü bildirmişdir.

İkinci Qarabağ müharibəsində Azərbaycanın "yumşaq güc"ünü əyani şəkildə əks etdirən məqamlardan biri də beynəlxalq təşkilatların mövqeyi olmuşdur. ATƏT-in Minsk qrupundan fərqli olaraq, BMT, NATO, Qoşulmama Hərəkatı, İƏT, KTMT və s.-ri 44 günlük müharibədə Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş, ya da etika xatirinə hərbi əməliyyatların eskalasiyasının mümkünsüzlüyü barədə bəyanat vermişlər.

Əsas diqqəti çəkən məqam "19 oktyabrda BMT TŞ-da Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar keçirilmiş müzakirələrdən sonra TŞ-nın sədri adından bəyanat layihəsi hazırlanmışdır. Bəyanat layihəsində BMT TŞ-nın məlum qətnamələrinə istinad öz əksini tapmamışdır. Sözügedən layihə, əsasən, Rusiya Federasiyası və Fransa tərəfindən hazırlanmışdır. BMT TŞ-nın qeyri-daimi üzvləri olan və Qoşulmama Hərəkatının üzvü olan İndoneziya, Niger, Tunis, Vyetnam, Cənubi Afrika, Sent Vinsent və Qrenadin və Dominikan Respublikası iki dəfə sükut prosedurunu pozaraq, BMT TŞ qətnamələrinə istinadın bəyanata daxil edilməsinə israr etmişlər. Bununla həmin dövlətlər BMT Nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT TŞ-nın qətnamələrinə, Bandunq prinsiplərinə, QH-nın sənədlərinə sadiqliyini növbəti dəfə nümayiş etdirmişlər. Qoşulmama Hərəkatı üzv dövlətlərinin israrlı və prinsipial mövqeyindən sonra haqqında bəhs olunan bəyanat layihəsi rəsmən geri götürülmüşdür" [8].

"Prezident İlham Əliyev İndoneziya, Niger, Tunis, Vyetnam, Cənubi Afrika, Vinsent, Qrenadin və Dominikan Respublikasına həmrəylik göstərərək ədalətli və prinsipial mövqelərinə görə təşəkkürünü ifadə edir. Bildirir ki, Qoşulmama Hərəkatının Sədri kimi, 2019-cu ildə Bakıda keçirilmiş XVIII Zirvə toplantısında çıxışında dediyi kimi bundan sonra da üzv dövlətlərin maraqlarını, beynəlxalq hüququ və ədaləti BMT-də və digər beynəlxalq təşkilatlarda müdafiə edəcəkdir. Qoşulmama Hərəkatının Sədri qismində Prezident İlham Əliyev bütün QH üzv ölkələrinə müraciət edərək, Bandunq Prinsipləri əsasında həmrəyliyə, birliyə və qarşılıqlı dəstəyə çağırır" [8].

## 4. İnformasiya müharibəsində üstünlüyün ələ keçirilməsi

İkinci Qarabağ müharibəsində tarixi qələbənin əldə edilməsində Azərbaycanın informasiya məkanında apardığı uğurlu siyasət mühüm rol oynadı. Müasir dünyada informasiya texnologiyalarının sürətli inkişafı onların idarəetmənin bütün sferalarına nüfuz etməsinə zəmin yaradıb. Məhz bunun nəticəsidir ki, siyasi məqsədlərin gerçəkləşməsində informasiya texnologiyaları əsas silaha çevrilib. Onun köməyi ilə həqiqətləri təhfir etmək, ictimai rəyə təsir göstərmək, hətta ölkədə siyasi sabitsizlik yaratmaqla dövlət çevrilişi həyata keçirmək mümkündür. Müasir dövrdə rəngli müharibələri nahaq yerə çevriliş texnologiyaları kimi qələmə vermirlər.

İnformasiya texnologiyaları müasir müharibələrin əsas və daimi alətinə çevrilib. Belə ki, fiziki müharibədən fərli olaraq informasiya müharibəsi öz daimiliyi ilə seçilir. Fiziki müharibə aparmadan informasiya müharibəsi aparmaq mümkündür. Lakin informasiya müharibəsi aparmadan fiziki müharibə aparmaq mümkün deyil. Bunu Ermənistanın son bir əsrdə Azərbaycana qarşı apardığı informasiya müharibəsində görmək mümkündür. Əgər son bir əsrdə erməni-müsəlman qırğınlarından tutmuş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsinədək hərbi əməliyyatlar və silahlı toqquşmalar konkret qısa müddətli dövrləri əhatə etmişdirsə, informasiya müharibəsi bu gün də daxil ol-

maqla heç zaman dayanmamışdır. Məhz bu səbəbdən ölkənin siyasi təhlükəsizliyini və suverenliyini təmin etmək üçün müxtəlif KİV-dən istifadə etməklə informasiya müharibəsinin aparılmasını öyrənmək son dərəcə vacibdir. Bu bir həqiqətdir ki, silah-sursata milyonlar sərf etməkdənsə, KİV-ə 1 dollar qoymaq daha səmərəlidir. Çünki ola bilsin ki, silahlardan istifadə olunmasın, lakin KİV gecə-gündüz susmaq bilmir.

İnformasiya müharibələri, eləcə də ona yaxın şəbəkə müharibələri adətən vətəndaş cəmiyyəti və güc strukturları üzərində idarəetmə və nəzarət sisteminin yaradılması; əhalinin informasiya proqramlaşdırılması; terror aktları; iqtisadi müharibələr, sanksiyalar və maliyyə spekulyasiyaları ilə müşayiət olunur.

SSRİ-nin süqutundan sonra yaranmış müstəqillik dövründə Ermənistan və erməni diasporunun Azərbaycana qarşı informasiya müharibəsinin hədəfləri aşağıdakılardan ibarət olub [4, s.33-34]:

1. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini xristian-müsəlman qarşıdurması kimi təqdim etmək;
2. Qarabağın tarixi erməni torpağı olduğunu sübut etməyə çalışmaq;
3. Ermənilərin azərbaycanlılarla bir yerdə yaşaya bilməyəcəyini sübut etmək;
4. Qarabağda yaşayan ermənilərin öz müqəddəratını təyinetmə hüququnu aktuallaşdırmaq;
5. Azərbaycanlıların etnik və dini azlıqlara qarşı hörmətsiz yanaşdığını sübut etməyə çalışmaq.

Onların bu yalanlarına İkinci Qarabağ müharibəsi son qoymuş oldu. Lakin Azərbaycan buna asanlıqla nail olmadı. Belə demək mümkündürsə, informasiya müharibəsinə hazırlıq son 30 ildə aparılmış hərbi quruculuğun tərkib hissəsi olub.

Prezident İlham Əliyev 24 sentyabr 2014-cü ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası silahlı qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında sərəncam imzaladı" [12]. Dövlət sirri təşkil edən məlumatların yayılmasına görə məsuliyyətin gücləndirilməsi sənəddə öz əksini tapdı. Həmçinin qoşunların dislokasiyası, hərbi-siyasi və əməliyyat şəraiti, hərbi sahədə Azərbaycan Respublikasının milli təhlükəsizliyinə xələl gətirə bilən digər məlumatların yayılmasının yolverilməzliyi, jurnalistlərin cəbhə boyu zonada akkreditasiyası, xidməti ezamiyyətlər və digər məsələlər həllini tapdı. Kütləvi informasiya vasitələrinin nümayəndələri və internet istifadəçiləri arasında aparılan iş öz bəhrəsini 2016-cı il Aprel döyüşləri zamanı verdi. Ölkə mediası mənbəyi məlum olmayan informasiyalara deyil, dövlət strukturlarının yaydığı informasiyalara istinad etməyə başladı. Nəticədə erməni və ermənipərəst qüvvələrin yaydığı məlumatlar Azərbaycanda düşmənin ümid etdiyi səmərəni vermədi.

Aprel döyüşləri informasiya qarşıdurması zamanı ölkə media strukturlarının fəaliyyəti baxımından sınaq oldu və dövlət qurumları düşmənin informasiya həmlələrinin qarşısını almağı bacardı.

Vətən müharibəsinin ilk günlərindən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev informasiya qarşıdurmasının xeyrimizə dəyişməsində önəmli rol oynadı. Dövlət başçısı II Qarabağ (Vətən) müharibəsinin getdiyi 44 gün ərzində İlham Əliyev Türkiyə, Rusiya ABŞ, Fransa, İtaliya, Almaniya, İngiltərə, İspaniya, Yaponiya və Qətərdən olan tanınmış, on milyonlarla, yüz milyonlarla auditoriyası olan nəhəng media qurumlarının əməkdaşlarına 4 dildə 30-a yaxın müsahibələr vermiş, 600-dən çox sualı cavablandırmış, ölkəmizin haqlı mövqeyini dünyaya media vasitələrilə çatdırmış, BMT-nin sənədlərinə və beynəlxalq hüquqa əsaslanaraq 30 ilə yaxın davam edən Ermənistanın işğalına Azərbaycanın son qoymaq istəyini inandırıcı fakt və sübutlarla əsaslandırmışdır [9, s. 23].

Ümumilikdə Azərbaycan Respublikası Prezidentinin müsahibə verdiyi media qurumları nümayəndələrini şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1. *Azərbaycana dost münasibətdə olanlar* – Türkiyə və Qətər telekanallarının nümayəndələri. Həmin kanallar arasında Türkiyəyə məxsus "TRT Haber", SNN, "Haber Global" "Haber Türk" kanallarını və ərəb dünyasının populyar mediya maqnatları olan "əl-Cəzirə" və "əl-Ərəbiyyə" kanallarını qeyd etmək olar. Məhz bu kanallar Azərbaycanın haqq işinin dünyaya çatdırılmasında mühüm informasiya aləti kimi çıxış etməsi inkar edilmir. Xüsusən də, ərəb ölkələrində 44 günlük müharibə zamanı erməni vandalların islam mədəniyyətinə qarşı soyqırımına dair məlumatların yayılması ərəb dünyasında Ermənistanın anti-islam maskasının yırtılması məqsədi güdürdü. Çünki Ermənistan bəzi ərəb ölkələri ilə sıx münasibət yaratmaqla Azərbaycan və Türkiyə haqqında həqiqətlərin yayılmasına mane olmağa və islam dünyasında ikitirəliyin salınmasına səy göstərib.

2. *Bitərəf mövqedə duran media qurumlarının nümayəndələri.* Bu bölgüyə Yaponiyanın "Nikkey" qəzeti və Qərbi təmsil edən İtaliyanın "RAİ-1" kanalı və "La Respublika" qəzeti, həmçinin İspaniyanın "Efe" agentliyini daxil etmək olar. Həmin KİV və telekanallar öz neytrallıq statusundan istifadə edərək Azərbaycan haqqında obyektiv məlumatların öz ölkə vətəndaşlarına, Asiya və "qoca qitənin" ictimaiyyətinə çatdırılmasına öz müsbət töhfələrini vermişlər. Adı çəkilən bitərəf telekanallar və KİV-lərin yaydığı obyektiv Azərbaycan həqiqətləri bəzi ermənipərəst Avropa ölkələrində Azərbaycan haqqında qərəzli və birtərəfli məlumatların qeyri-məhdud dominantlığına imkan verməmişdir.

3. *Rusiya KİV-lərinin nümayəndələri.* Ölkə prezidentinin bu təsnifatda yer alan Rusiyanın "Rossiya-1", "Pervıy Kanal" və "RBK" televiziya kanallarına, Ria Novosti, "Rossiya Seqodnya" və TASS informasiya agentliklərinə verdiyi müsahibələr Rusiya telekanallarında və KİV-də erməni təbliğatının təsir gücünün azaldılmasına hesablanmışdı.

4. Azərbaycana qarşı qərəzli mövqedə olan media qurumları nümayəndələri. Azərbaycana və onun haqq işinə kölgə salmaq istəyən bir sıra ölkələrin KİV mənsubları 44 günlük əməliyyatlar zamanı qərəzli mövqeləri ilə beynəlxalq aləmdə ictimai rəyi Azərbaycanın qarşı formalaşdırmağa çalışmışlar. Onlar İkinci Qarabağ müharibəsini "Azərbaycanın Artsaka qarşı hərbi hücumu" kimi təqdim etməyə, erməni separatizminə açıq-aşkar dəstək verməyə, Ermənistanı beynəlxalq-hüquqi məsuliyyətdən azad etməyə çalışmış, Azərbaycanın suverenliyinin parçalanmasına istər KİV-də, istərsə də qanunvericilik palatalarında ciddi cəhdlər göstərmiş, bəzi hallarda isə parlament dinləmələri keçirməklə, separatçı qurumun lehinə sənədlər qəbul etmişlər. Azərbaycana qərəzli mövqe nümayiş etdirmiş kanal və mediya maqnatları arasında "Evronews", "CNN İnternational", Fransanın "Franse 24", "Sky news", ABŞ-ın "Fox News", Almaniyanın "ARD" telekanallarını, Fransanın "Figaro" qəzetini və "BBC News" agentliyini qeyd etmək olar. Onlar erməni təəssübkeşliyini Azərbaycan və Türkiyəni İkinci Qarabağ müharibəsində heç bir rəsmi sübut olmadan radikal islamçı terror təşkilatları ilə işbirliyində ittiham etməyə və onlara qarşı qlobal miqyasda cəbhə yaratmağa səy göstərmişlər.

44 günlük əməliyyatlar zamanı Azərbaycanın virtual döyüş məkanında ələ keçirdiyi üstünlükdə aşağıdakı hadisələrin rolunu danmaq olmaz. Belə ki, 27 sentyabr günorta saatlarında başlayan hücumlarla ümumilikdə 90 erməni saytı sındırılmış, Ermənistanın dövlət strukturlarına məxsus çox sayda məxfi sənədlər azərbaycanlı hakerlər tərəfindən ələ keçirildi. Bu sənədlər arasında Ermənistanın Dövlət Təhlükəsizlik Xidmətinə, Ermənistan Prezidentinə, Ermənistanın Xarici İşlər Nazirliyinə aid xeyli məlumatlar var idi.

29 sentyabr tarixində isə Anti-armenia Team haker qrupu tərəfindən Ermənistan silahlı qüvvələrinə məxsus 10 GB həcmində məxfi sənədlər ələ keçirilmişdi. Karabakh Hacking Team qrupundan olan bir neçə haker Ermənistan hökumətinin elektron sənəd dövriyyəsi sistemini sındırmış və nəticədə 50 TB həcmində sənədlər əldə edilmişdir [11].

Məqalədə aparılmış təhlildən bu qənaətə gəlmək olur ki, "yumşaq güc" vasitələri

ölkənin milli təhlükəsizliyini etibarlı şəkildə təmin etmək üçün əlavə imkanların əldə edilməsinə xidmət edir. Onlar dinc vasitələrlə hərbi təhlükə və təhdidləri zəiflətməyə və aradan qaldırmağa kömək edirlər. Bu vasitələr təcavüzkarın düşmənçilik fəaliyyətində imkanlarını azaldır, onun qarayaxma kompaniyasının qarşısını alır, konspirativ planlarını ifşa etməyə imkan verir.

**Nəticə**

Müasir beynəlxalq münasibətlərin humanistləşməsini nəzərə alsaq, o zaman milli maraqların təmin olunmasında "yumşaq güc" vasitələrinin rolunun artmasını dərk etmək çətin deyil. Beynəlxalq hüquq milli maraqların təmin olunmasında müharibəni qadağan etməsə də, onun aparılması metodları arasında "yumşaq güc" vasitələrinə geniş imkan yaradır. Müasir müharibələrdə "yumşaq güc" vasitələrinin rolunun artması hərbi gücün arxa plana keçməsi anlamına gəlmir. Hər iki güc vasitəsinin inteqrativ formada tətbiqi qarşıya qoyulmuş məqsədə daha mükəmməl səviyyədə çatmağa imkan verir. Azərbaycan İkinci Qarabağ müharibəsində bu iki gücün inteqrativ istifadəsi yolu ilə 30 illik erməni işğalına son qoya bildi.

Süni intellektin inkişafı müasir ordu quruculuğu prosesinə, hərbi planlaşdırmaya və müharibələrin transformasiyasına yetərli təsir göstərməkdədir. Müasir müharibələrin taleyində hava döyüşündə üstünlük əsas amilə çevrilib. Dövlətlər öz hərbi arsenalını PUA və digər satellit texnologiyalarla zənginləşdirməkdədirlər. Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə zəruri fəaliyyətləri davam etdirməkdədir.

İstənilən müharibədə əldə edilən qələbə ölkənin sərəncamında olan milli güc vasitələrinin (onların arasında "yumşaq güc" vasitələri) haqq işi uğrunda səfərbər edilməsi hesabına həyata keçirilir. İkinci Qarabağ müharibəsində istər ölkə daxilində, istərsə də xaricində xalq-hökumət-ordu triadası mütəşəkkil və nizamlı fəaliyyəti ilə tarixi qələbənin əldə edilməsinə öz töhfəsini vermiş oldu.

44 günlük hərbi əməliyyatlar zamanı Azərbaycan proaktiv xarici siyasəti ilə yadda qaldı. Bu siyasət milli maraqların və onların təmin edilməsi məsuliyyətini tam şəkildə öz üzərinə götürməyə hesablanıb. Həmin müharibədə Azərbaycan əsgəri öz sözünü döyüş meydanında, Azərbaycan diplomatiyası isə söz savaşında göstərmiş oldu. Tərəfdaşların dəstəyi isə yalnız mənəvi-siyasi xarakter daşıyıb.

Real müharibədən fərqli olaraq, informasiya müharibəsi daimi aparılan mübarizə formasıdır. İnformasiya təhlükəsizliyi ilə ciddi məşğul olmayan ölkə öz süverenliyinə qarşı ciddi təhdidlərlə üzləşə bilər. Bunu 44 günlük müharibə zamanı xarici KİV mənsublarının Azərbaycan prezidenti İlham Əliyevə müsahibə zamanı ünvanladıqları qərəzli, ədalətsiz suallarında görmək mümkün idi. Lakin Azərbaycan prezidenti İlham Əliyevin obyektiv mövqeyi və diplomatik məharəti informasiya cəbhəsində düşmənin qarayaxma kompaniyasını uğursuzluğa düçar etdi.

## ƏDƏBİYYAT


1. Azərbaycanda 2020-ci ildə qeydiyyata alınmış VCT-in sayı 4500-ü keçmişdi: / CSO-meter. (https://csometer.info/sites/default/files/2022-02/CSO-Meter-Country-Update-Azerbaijan-2020-Azeri.pdf).
2. Azərbaycan regional kosmik gücə çevrilir: / Azərbaycan respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. Bakı, 23 yanvar 2024. (https://mincom.gov.az/az/media/xeberler/azerbaycan-regional-kosmik-guce-cevrilib).
3. Azərbaycan və Ermənistan arasında atəşkəs sazişi qüvvəyə mindi / BBS news Azərbaycanca. Bakı, 10 Oktyabr 2020. (https://www.bbc.com/azeri/azerbaijan-54435668).
4. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanı Zəfərə aparan

yol. Bakı, 2021, 232 s.
5. Əliyev İ. “Təkcə onlar düşmənə 1 milyard ziyan vurub” / Bakı, 15 oktyabr 2020. (https://axar.az/news/siyaset/507333.html).
6. Hikmət Hacıyev və Ceyhun Bayramovun dedikləri: / Novator. Bakı, 10 oktyabr **2020.** (https://novator.az/2020/10/10/hikm%C9%99t-haciyev-v%C9%99-ceyhun-bayramovun-dedikl%C9%99ri/).
7. “Qarabağa Skandinaviya sülhməramlıları yerləşdirilsin” - Robert O'Briendən ilginc təklif: / Ens.az. Bakı, 31 oktyabr, 2020. (https://www.ens.az/az/qarabaga-skandinaviya-sulhmeramlilari-yerlesdirilsin-robert-obrienden-ilginc-teklif).
8. Qoşulmama Hərəkatının üzvləri BMT TŞ-də Azərbaycanın əleyhinə olan sənədin qəbul olunmasına imkan verməyib: / Report.az. Bakı, 23 Oktyabr 2020. (https://report.az/qarabag/hikmet-haciyevden-aciqlama5234/).
9. Mustafazədə, T. Vətən (II. Qarabağ) Müharibəsinin İnformasiya Təminatinda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rolu // Akademik Tarih ve Düşünce Dergisi, 2022, s.16-38
10. Vətən müharibəsində Azərbaycan diasporu hansı işlər görüb?” / 525-ci qəzet. – Bakı, 23.04.2022. (https://525.az/news/191507-veten-muharibesinde-azerbaycan-diasporu-hansi-isler-gorub).
11. Vətən müharibəsi haqqında / Sabuncu rayon icra hakimiyyəti. (http://sabunchu-ih.gov.az/az/page/442.html).
12. Vətən müharibəsində informasiya təhlükəsizliyi / Mod.gov.az. Bakı, 16 mart 2022. (https://mod.gov.az/az/pre/39556.html).
13. Армения призналась в терактах против мирного населения Азербайджана / Vesti Kavkaza. Москва, 7 октябрь 2020. https://vestikavkaza.ru/news/voennyjsovetnik-pasinana-priznalsa-v-teraktah-protiv-mirnogo-naselenia-azerbajdzana-video.html).
14. В ожидании бури: Южный Кавказ / М.С. Барабанов [и др.]. М.: Центр анализа стратегий и технологий, 2018, 200 с.
15. Конрад Н.И. Сунь-Цзы. Трактат о военном искусстве. М-Л.: Изд.-во АН СССР, 1950, 42 с.
16. Помпео призвал прекратить боевые действия между Арменией и Азербайджаном: / Голос Америки. Ереван, 22 октября, 2020. (https://www.golosameriki.com/a/pompeo-pushes-for-end-to-fighting-over-nagorno-karabakh/5631233.html)
17. Саркисян, А. Каждый армянин должен думать об Армении, как о своем доме: Президент РА – армянской общине/ Ереван, 29 ноябрь, 2020 г. (https://www.president.am/ru/press-release/item/2020/11/29/President-Armen-Sarkissian-inMoscow/)
18. Clausewitz Carl von. On war. Indexed edition. Edited and Translated by Michael Howard and Peter Paret. Princeton University Press, Princeton, New Jersey, 1977, 732 p.

***Резюме***

***Магомед Акбаров***

***Роль ресурсов «мягкой силы» Азербайджана в победе во Второй Карабахской***

В статье анализируется о роли средств «мягкой силы» в блестящей победе Азербайджана во Второй Карабахской войне. С этой целью в этой победе были уточнены средства «мягкой силы» Азербайджана и сделан упор на их интегративное использование. Среди этих инструментов отдельно анализировались искусственный интеллект (космическая разведка и беспилотное боевое оружие), диаспора, структура гражданского общества, информационная война и активная внешняя политика.

В настоящее время факторы мягкой силы играют очень важную роль в трансформации военных конфликтов. Они привнесли новые характеристики в военные операции, перейдя от обычных войн к бесконтактным. Именно интеграция факторов мягкой силы в современную военную работу способствовала гибридному характеру войн, снижению физического насилия и превращению стратегических регионов в «серые зоны».

Спутниковые технологии - БПЛА и искусственные спутники, считающиеся продуктом искусственного интеллекта, третьим огромным открытием после пороха и автоматизированной вой-

ны в мировой военной истории, обеспечили освоение космоса и виртуальный удар в 44-дневной войне, сломили возможности противника оказать сопротивление в очень короткие сроки, вывел из строя его системы ПВО и лишь заставил продолжить военные действия на суше.

Выяснена патриотическая роль структур гражданского общества и диаспорских организаций за рубежом в обеспечении внутренней стабильности и единства власти, народа и армии в стране в годы войны.

В статье рассматривается активная внешняя политика Азербайджана в контексте двусторонней и многосторонней дипломатии, а также подчеркивается успешная работа, основанная на международном праве и проводимая в ряде международных организаций за последние несколько лет.

Информационная безопасность военных действий считается одной из важнейших задач обеспечения победы в современных войнах. В ходе второй карабахской войны целенаправленная деятельность президента Азербайджана Ильхама Алиева по надлежащей реализации этой задачи считается похвальной. В статье преимущество, полученное в области информации в ходе 44-дневной войны, было напрямую охарактеризовано целенаправленной, уверенной и справедливой позицией главы страны со средствами массовой информации, представляющими ведущие страны мира.

***Ключевые слова:*** *Вторая карабахская война, диаспора, информационный фактор, внешняя политика, организации гражданского общества*

***Summary***

***Mahammad Akbarov***

***The Role of Azerbaijan's "Soft Power" Resources in the Victory in the Second Karabakh War***

The article discusses the role of "soft power" tools in Azerbaijan's brilliant victory in the Second Karabakh War. For this purpose, Azerbaijan's "soft power" tools in that victory were clarified and their integrative use was emphasized. Among these tools, the role of each was analyzed separately, taking artificial intelligence (space intelligence and unmanned combat weapons), diaspora, civil society structure, information warfare, and proactive foreign policy as the main ones.

Currently, soft power factors play a very important role in the transformation of military conflicts. They have brought new features to military operations by moving from conventional wars to contactless warfare. It is the integration of soft power factors into modern military work that has led to the hybrid nature of wars, the reduction of physical violence and the transformation of strategic regions into "Gray Areas".

Satellite technologies - UAVs and artificial satellites, which are considered the third great discovery in the history of world warfare after gunpowder and automated combat vehicles, provided space reconnaissance and virtual strikes in the 44-day war, breaking the enemy's resistance in a very short time, disabling its air defense systems and forcing it to continue military operations only on land.

The patriotic role of civil society structures and diaspora organizations abroad in ensuring internal stability and unity of the government-people-army in the country during the war is clarified.

The article examines Azerbaijan's proactive foreign policy in the context of bilateral and multilateral diplomacy and emphasizes the successful work carried out in a number of international organizations in the past few years in achieving victory, based on international law.

Information support for military operations is considered one of the critical tasks in ensuring victory in modern wars. The purposeful activity of Azerbaijani President Ilham Aliyev in the proper implementation of this task during the Second Karabakh War is considered commendable. The article describes the advantage achieved in the field of information during the 44-day war as directly attributable to the country's leader's purposeful, confident, and fair stance with the media representing the world's leading countries.

***Key words:*** *Second Karabakh war, diaspora, information factor, foreign policy, civil society organization*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.